# Xəzərin sahilində Rüstəm İbrahimbəyovun adını daşıyan ulduz parlayır




**Aprelin 22-də Sea Breeze Şöhrət xiyabanında görkəmli yazıçı, dramaturq, rejissor və prodüser, Azərbaycanın Xalq yazıçısı, Azərbaycan SSR və Rusiya Federasiyasının əməkdar artisti Rüstəm İbrahimbəyovun adını daşıyan ulduzun təntənəli açılış mərasimi keçirilib.**

Rüstəm İbrahimbəyov Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri, nüfuzlu beynəlxalq mükafatlar laureatı, dünya kinosunun ayrılmaz parçası hesab olunan mühüm əsərlərin müəllifidir. Onun filmləri Kann, Berlin və Venesiya kinofestivallarında mükafatlar qazanıb. Onun "Günəşlə sovrulmuşlar" filmi Oskar mükafatı qazanıb. "Səhranın bəyaz günəşi" filmini isə bu gün də kosmonavtlar uçuş öncəsi hazırlıq zamanı izləyirlər.




Azərbaycan dramaturgiyasında özünəməxsus janrı ilə seçilən yazıçının ulduzunun açılış mərasimində ailə üzvləri, dostları və yaxınları iştirak ediblər.

Rüstəm İbrahimbəyovun oğlu Fuad İbrahimbəyov atası ilə bağlı xatirələrini bölüşüb. O, mərasimə topalaşanlara, xüsusilə bu təşəbbüsə görə Emin Ağalarova anası Anna İbrahimbəyova adından təşəkkür edib.

Yazıçının qızı Fatimə İbrahimbəyova vurğulayıb ki, həyatlarının 50 ildən çox Xəzərin sahilində yerləşən Nardaranda keçib. İbrahimbəyov qardaşları burada bağ evi inşa edərək, Tahir Salahov, Araz Ağlarova qonşu olublar. Bura ilə çoxlu xatirələri olduğunu, qəribə güc mərkəzinə çevrildiyini, atasının məhz buranın ecazkar havasından və dənizin səsindən ilhamlanaraq gözəl əsərlər yaratdığını qeyd edib. R.İbrahimbəyovun ulduzunun mavi səma altında Sea Brezze Walk of Fame-də açılmasından məmnunluq ifadə edib.

Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Rasim Balayev qeyd edib ki, R.İbrahimbəyovla 30 il birgə fəaliyyət göstəriblər, 40 ildən artıq müddətdə isə dost olublar. Azərbaycan mədəniyyətinin, kinosunun ən yüksək pilləsində duran şəxsiyyətdir. Onun pyesləri bütün dünyada tanınır, ssenarisi əsasında çoxsaylı filmlər çəkilib, eyni zamanda yüksək peşəkar təşkilatçı olub. "Hazırda onun yerini dolduran şəxs yoxdur", - deyə R.Balayev əlavə edib. Lakin onun əsərləri hər zaman yazıçını Azərbaycan xalqının qəlbində daim yaşadacaq.

Xalq artisti, Rusiyanın məşhur teatr və kino rejissoru, teleaparıcı, ictimai xadim Yuli Qusman deyib ki, ömrü Azərbaycan torpağı ilə sıx bağlıdır. O gənc nəsillərə tövsiyə edib ki, Azərbaycan xalqını dərindən dərk etmək üçün R.İbrahimbəyovun kitablarını oxusunlar, filmlərini izləsinlər. Orada hər bir azərbaycanlının vurğunu olduğu diyarı duymaq olar, fəxr etdiyimiz Vətəni məhz həmin kitablar sayəsində daha yaxşı tanımaq şansımız var.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, bəstəkar, Xalq artisti Fərhad Bədəlbəylinin sözlərinə görə, əgər ulduzlar parlayırsa, deməli, bu kiməsə lazımdır. XX əsrin 60-cı illəri xatırlayan F.Bədəlbəyli o zaman paytaxtın daha çox mədəni həyatının çox canlı keçidiyini deyib. İnsanlar daha çox kitablar oxuyardılar, Filarmoniyaya gedərdilər, intellektual cəhətdən daha yaxşı inkişaf edirdilər, biri-biri ilə bədii müzakirələr aparardılar. R.İbrahimbəyovun o dövrlər hər kitabı, ssenarisi əsasında qoyulan tamaşalar paytaxtın mədəni həyatında bir hadisəyə çevrilirdi.

Sea Breeze Resort-un sahibi, Xalq artisti Emin Ağalarov R.İbrahimbəyovla bağlı xatirələri bölüşərək hələ uşaqlıq vaxtlarından yazıçının oğlu və qızı ilə dostluq əlaqələrinin yarandığını deyib. Çox mehriban, ünsiyyətçil, uşaqlara gözəl məsləhətlər verən yazıçının bağ evində hər zaman tanınmış şəxsiyyətlər, ziyalılar yığışardılar.

Daha sonra ailə üzvləri və dostların iştirakı ilə R.İbrahimbəyovun adını daşıyan ulduzun təntənəli açılışı baş tutdu. Sea Breeze Walk of Fame Azərbaycanda görkəmli mədəniyyət və incəsənət xadimlərinə həsr olunmuş ilk və yeganə şöhrət xiyabanıdır. Müslüm Maqomayev, Devid Foster, Vaqif Mustafazadə və bir çox digər əfsanəvi şəxsiyyətlərin adını daşıyan 26 ulduz xiyabanda öz yerini alıb.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika .- 2025.- 23 aprel (№ 80).- S.14.